Hürriyyət

Şəhid

SİZİN ÜÇÜN QƏZET

№11 (3350) 18 Mart / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Əbülfəz ürəklərdə yaşayır



**Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatan 44 günlük haqq savaşımızda Vətən, torpaq uğrunda canını fəda edən minlərlə qeyrətli oğlanlardan biri də şəhid Əbülfəz Rəhmətovdur. Hər dəfə bu ad çəkiləndə bütün Lerik camaatı qürur duyur. Əbülfəz göstərdiyi şücaətlə Azərbaycan xalqının qəhrəmanlıq simvoluna dönərək ölməzlik qazanıb.**

Əbülfəz Hüseynverdi oğlu Rəhmətov 3 iyul 1989-cu ildə dağlar diyarı Lerik rayonunun Ambu kəndində dünyaya göz açıb. Məktəb illərindən qəlbi düşmən tapdağında qalan cənnət-məkan Qarabağ torpaqlarının azad edilməsi ilə alışıb-yanan Əbülfəz müstəqil həyata qədəm qoyanda ömrünü hərbiyə bağlayıb. Belə ki, 2010-cu ildə Ali Hərbi məktəbini bitirib leytenant kimi həmin ildən başlayar Vətənin keşiyində durmağa. Çox keçməyib kapitan rütbəsini alıb və müxtəlif hərbi hissələrdə tağım komandiri vəzifəsindən başlamış tabor komandiri vəzifəsinə qədər yüksəlmiş, peşəkar, təcrübəli zabit kimi Azərbaycan Ordusunda öz xidmət ilə tanınıb, sevilib.

Xidməti boyu bir qayda olaraq Qarabağımızı işğal altında saxlayan erməni cəlladlarından qisas almaq üçün məqam axtaran komandir birinci arzusuna Aprel döyüşlərində çatıb. Göz qırpmadan döyüşlərə atılıb, yağıya qan qusdurub. Əbülfəz kimi Vətən sevdalıların qəhrəmanlığı sayəsində işğaldan azad olunan Lələ-təpədə üçrəngli qələbə bayrağımız dalğalanıb. Eləcə iyul ayında Tovuz istiqamətində baş verən hadisələrin də qəhrəmanı olub Əbülfəz. Həm də sübut edib ki, həmişə haqq işi uğrunda canından-qanından keçməyə hazırdır.





2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunun kapitanı Əbülfəz Rəhmətov birbaşa səngərə girib düşmənlə vuruşub. Elə ilk döyüşdə sinəsini yanar oda döndərib dığaların bağrını çatladıb. Kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən haqq savaşımızda göstərdiyi şücaətlə tarix yazıb. 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olub. Vətənlə döyünən ürəyi dayansa da, komandirin mərdliyi, igidliyi əsgərləri qələbəyə aparıb. Xalq qəhrəman oğlunu ürəyində yaşatmaqla, dövlət də onu "III dərəcəli Rəşadət" ordeninə, "Vətən uğrunda", "İgidliyə görə" medallara layiq görüb.

Şəhid kapitan Əbülfəzi Rəhmətovun adını özündə yaşadan yadigarlar çoxdur. Ev muzeyi onu xatırlayan əşyalarla zəngindir. Bu günlərdə Lerikin bir qrup mədəniyyət işçisi muzeyi, eləcə şəhid ailəsini ziyarət ediblər. Ziyarət zamanı şəhidin valideynləri onun haqqında xoş xatirələrini, vətənpərvərliyi barədə fikirlərini mədəniyyət işçiləri ilə bölüşüblər. Eləcə də şəhidin ev muzeyi, xatirə şəkilləri ilə tanış olan mədəniyyət işçiləri bildiriblər ki, şəhidlər hər biri Azərbaycanlının and yeridir, onlar əbədi ömür yaşayırlar.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**